**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 25 aprel tarixli 645-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 1 may tarixli 1356 nömrəli Fərmanının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 5, maddə 391; 2005, 4, maddə 377, 6, maddə 548; 2007, 2, maddələr 197, 201; 2008, 2, maddə 105, 9, maddə 862; 2009, 11, maddə 936; 2012, 1, maddə 44; 2014, 2, maddə 201; 2016, 5, maddə 955, 9, maddə 1596; 2017, 6, maddə 1237; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 27 oktyabr tarixli 472 nömrəli qərarı) ilə təsdiq edilmiş "Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları"nın 5.22-ci bəndində "22.2-ci maddəsində nəzərdə tutulan vergi orqanlarının büdcədənkənar fonduna vəsaitin ayrılması" sözləri "22-1-ci maddəsində nəzərdə tutulan hesablara vəsaitlərin köçürülməsi" sözləri ilə əvəz edilsin.

**Azərbaycan Respublikası**
**Baş nazirinin birinci müavini Yaqub Eyyubov**

Bakı şəhəri, 17 noyabr 2017-ci il
495